

**DƏYANƏT CÜMƏNOV**

*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

# AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA RƏSUL RZA ƏDƏBİ MƏKTƏBİ

XX yüzilliyin 50-ci illərinin ikinci yarısından sərbəst şeiri milli formaya salan, 60-cı illərindən modern şeiri və düşüncəni Azərbaycan poeziya məkanına gətirən, sərbəst şeir yaradıcılarından olan Rəsul Rza hələ sağlığında müasirlərinə güclü ədəbi təsir göstərmişdir. Ədəbi təsir müəyyən mərhələdə -50-ci illərin ikinci yarısından geniş poetik vüsət almış, 60-cı illərdə ədəbi məktəbin yaranması ilə nəticələnmişdir ki, bu hadisə - Rəsul Rza fenomeni şairin çağdaşları, eləcə də sonrakı ədəbi nəsillər tərəfindən etiraf olunmuş, müxtəlif istiqamətli tədqiqatlarda elmi-nəzəri təhlilini və izahını tapmışdır. Rəsul Rza və sərbəst şeirlə bağlı tədqiqatlar göstərir ki, Azərbaycanda 1920-30-cu illərdə məzmun baxımından bir çox uğurlu sərbəst səpkili şeirlər olsa da, bu şəkil "50-ci illərə qədər özünün tam milli formasını tapa bilməmişdi, ... çox yüksək məzmun olduğuna baxmayaraq hələ o, formaca büllurlaşmamış, xəlqiləşməmişdi" [1, s. 228]. Sərbəst şeirin tam büllurlaşmasını, tam milli formaya salınmasını 50-ci illərə bağlayan akademik M.Cəfərov hələ 1960-cı ildə belə qənaətə gəlmişdir ki, "Lenin" poeması üzərindəki iş prosesi şairin sərbəst şeirə tamamilə yiyələnməsinə səbəb olmuşdur, "... bu poemada Rəsul Rza sərbəst şeirin məhz Azərbaycana məxsus milli formasını axtarıb tapa bilmişdir" [1, s. 231]. Sonrakı tədqiqatlarda Rəsul Rza yaradıcılığı ilə (50-60-cı illər nəzərdə tutumaqla) sərbəst şeirin Azərbaycan poeziyasında milli ədəbi hadisəyə çevrilərək şeir məkanımızda özünü təsdiq etməsi ədəbi fakt kimi elmi izahını tapmışdır. Bu mənada Rəsul Rzanın ədəbi xidmətlərini Azərbaycan şeir sənətində yalnız sərbəst şeirin yaradıcılarından biri kimi məhdudlaşdırmaq yanlış olardı, o "... həm də bu cür şeirin milli poeziyda ənənəsini yaradan şairdir" [2, s. 268].

Rəsul Rzanın altımışıncı illərədəki novatorluğunun əsasının məhz otuzuncu illərin bünövrəsi üzərində ucaldığını yazan tənqidçi-alim Y.Qarayev "Mövzuca və ideyaca hakim, rəsmi ideya dəbinin tələbinə böyük güzəşti ilə birlikdə formada, üslubda, janrda qeyri-adi poetika və sənət hadisəsi olan "Lenin" poeması da, əslində, sərbəst poetika, vəzn, struktur aktı idi" [3, s. 704] elmi-nəzəri izahı ilə onun Azərbaycan poeziyasında, sərbəst şeir hərəkatındakı mövqeyini düzgün müəyyənləşdirmiş, bununla da M.Cəfərovun mülahizələrini təsdiqləmişdir. Təqidçi-ədəbiyyatşünas Ş.Salmanov şairin bu dövr yaradıcılığına münasibət bildirərkən poeziyada intellektuallıq məsələsinə diqqəti yönəltmişdir: "Bununla belə onu da görməmək olmaz ki, 60-cı illərdən etibarən R.Rza lirikasında intellektual başlanğıc qüvvətlənir, narahat, qlobal miqyaslı fikir bu poeziyanın əsas novatorluq keyfiyyətinə çevrilir" [4, s. 17].

Azərbaycan ədəbiyyatşünaslığında Rəsul Rza haqqında ilk ən dolğun, mükəmməl şərh akademik M.Arifin "Fikir poeziyası" məqaləsi sayılır. Alim bu məqalədə R.Rzanın novatorluğunu əhəmiyyətsizləşdirmək istəyənlərə, şairin milli klassik poeziya ənənələrindən uzaqlaşmasına, süni bir yolla getməsinə irad tutanlara cavab vermiş, onun şeirlərinin kökünün milli poeziyamızın torpağından qida-

landığını izah etmiş, "Vesna vo mne" kitabında toplanmış şeirləri poetik rənglər, səslər, sözlər, ahənglər, təsirli bədii hakimanə kəlamlar vasitəsilə ifadə olunan fikir poeziyası adlandırmışdır.

1950-60-cı illərlə müqayisə etdikdə onu da diqqətdən qaçırmaq olmaz ki, 1920-illərin sərbəst şeiri Azərbaycanın ictimai-siyasi həyatının, eləcə də ədəbiyyatının ən mürəkkəb bir dövründə inqilabi poeziya hadisəsi kimi ölkəmizə kənardan – Mayakovski və

Nazim Hikmətlə (Əli Nazim onu türk sərbəst şeirinin yaradıcısı adlandırırdı) daxil olmuşdu, yeni quruluş, ədəbi siyasətlə bağlı idi. Bunu o dövrdə İ.Hikmət, Ə.Nazim, M.Rəfili və başqalarının məqalələrində də görmək mümkündür. Məsələn, M.Rəfili "Sərbəst şeir" haqqında ilk söz" məqaləsində ("Maarif işçisi", 1929, №1, s.71-78) beynəlmiləl ədəbiyyat yaratmaq uğrunda mücadiləyə başladıqlarını, ikinci sort ədəbiyyata ehtiyac olmadığını (klassik irsimiz, heca və əruzda yazılanlar nəzərdə tutulurdu), yeni ədəbiyyatın üzünü Füzulilər, Nəsimilər, Vaqiflər, Mirzə Fətəlilər, Nüseyn Cavidlərə deyil, dünya klassiklərinə - Verxarnlara, Uitmenlərə, Jül Romenlərə, Mayakovskilərə çevirdiklərini elan edirdi.

Azərbaycan poeziyasında sərbəst şeirin təşəkkülü mərhələsi olan 1920-30-cu illərdən (N.Hikmət, M.Rəfili) sonra 1940-cı illərdə bu sahədə boşluq, müəyyən tənəzzülü müşahidə olunurdu. 1940-50-ci illərin poeziyasını təhlil edərkən məlum olur ki, bu onilliklərdə sərbəst şeirin yükü, demək olar ki, R.Rzanın üzərinə düşür ("İndi", "Ərk qalası", "Şamaxı", "Anamın laylası", "Ana", "Ötən günlər", "Özünü öyməzlik", "Yazı masam", "Bir anlıq səadət", "Deyirlər axşamlar kədər gətirir" və s.). Fikrimizcə, məhz belə bir mürəkkəb ədəbi proses şəraitində - 1950-ci illərin sonu 60-cı illərə keçid dövründə, ədəbi nəsillərin bir-birini əvəz etdiyi məqamda yeni ədəbi nəslin sərbəst və modern şeir, intellektual şeir istiqamətində bədii təcrübəsi olan R.Rza kimi bir ustada, ədəbi müəllimə ehtiyac, zərurət yaranır. Prof. N.Şəmsizadə yazır ki, "Azərbaycanda 20-30-cu illərin qaynar ədəbi mübahisələri kontekstində R.Rzanın novator yaradıcılığı formalaşdı. Çox keçmədi ki, o nəinki sərbəst şeir cərəyanının, həmçinin Azərbaycan fəlsəfi intellektual şeiri təmayülünün başqanına çevrildi" [5, s. 301].

Milli zəmin və koloritə söykən Rəsul Rza 1960-cı illər sərbəst və modern şeir hərəkatının ədəbi-tarixi missiyanı üzərinə götürməklə onun əsas "lokomotiv"inə və bayraqdarına çevrildi. Bu ədəbi prosesdə Rəsul Rza ənənəsindən bu və ya digər dərəcədə yararlanaraq, sərbəst şeirdə öz poetik fərdi üslublarını, ifadə tərzlərini nümayiş etdirən şairlər arasında Ə.Kərim, F.Qoca, F.Sadıq, İ.İsmayılzadə, Ə.Salahzadə, V.İbrahim, V.Səmədoğlu, A.Abdullazadə, R.Rövşən, Ç.Əlioğlu, V.Cəbrayılzadə, C.Yusifzadə, T.Abdin, İ.Saleh, A.Abdulla, R.Yusifoğlu və başqaları yer aldı. Sərbəst şeirin Azərbaycan poeziya coğrafiyasında hərəkata çevrilməsində, püxtələşməsində, yüksəlməsində, intellektual ədəbiyyata keçməsində, ədəbi-ictimai siqlət daşımasında onların da əksəriyyətinin böyük xidmətləri olmuşdur. Ədəbi proses davam etmiş, 1960-80-ci illər poetik nəsli Rəsul Rzanın modern və sərsərbəst şeir təcrübəsindən novatorcasına istifadə etmiş, yenidən 90-cı illər poeziyası - Adil Mirseyid, Dəyanət Osmanlı, Murad Köhnəqala, Rasim Qaraca, Səlim Babullaoğlu, Hemid Herisçi və başqaları üçün ənənə yaratmışlar.

Son elmi araşdırmalardan belə nəticə çıxartmaq olar ki, 1920-30-cu illər Azərbaycan poeziyasında sərbəst şeirin I mərhələsidir və eksperiment xarakterlidir (N.Hikmət, M.Rəfili, R.Rza və eləcə də S.Rüstəm, S.Vurğun, M.Müşfiq, N.Rəfibəyli və b.), 40-50-ci illərdə Rəsul Rza bir növ "təklənib", bu ədəbi missiyanı təkbaşına idarə edir, 60-cı illərdən Rəsul Rza ilə başalnan II mərhələ isə dolğun və mükəmməldir. 1960-cı illərin ədəbi mübahisələri daha çox Rəsul Rza yaradıcılığı ilə, "... xüsusən "Rənglər" silsiləli şeirləri, sərbəst şeir yazan gənc şairlərin (Əli Kərim, İsa ismayılzadə, Ələkbər Salahzadə, F.Qoca, F.Sadıq və b.) şeirləri ilə bağlıdır. Deməli, sərbəst şeir hərəkatını təkcə Rəsul Rza yaradıcılığı ilə bağlamaq olmaz. Bu ədəbi-tarixi missiyanın yerinə yetirilməsində altmışıncı illər poetik nəslinin də öz payı var" [2, s. 274].

Ədəbiyyatşünas alim T.Əlişanoğlu 1960-80-ci illər sərbəst şeir hərəkatının Rəsul Rza qolunu eksperimental qanad adlandırır: "1960-80-ci illər şeirimizin eksperimentçi qanadı da vardır; 1950-60-cı illərdə Rəsul Rza şeirilə ilə gəlişən bu başlanğıc, sonradan Əli Kərim, İsa İsmayılzadə, Ələkbər Salahza-

də, Fikrət Qoca, Fikrət Sadıq, Abbas Abdulla, Çingiz Əlioğlu, Eldar Baxış, Vaqif Bəhmənli, Əlisəmid Kür, Əjdər Ol və b.-nın poetik təcrübəsində rəngarəng çalarlar almışdı" [6]. Alim onların bir məqsəddə - qəlibləşmiş şeir təsəvvürlərini sındırmağa xidmətdə birləşdiklərini, bir qism şairlərin formada (söz, səs, ifadə, intonasiya, ritm), digərlərinin isə fikir, mündəricə, şeir fəlsəfəsini dəyişməklə uğur qazanmasını göstərir. 1960-cı illərin yeni sərbəst şeir hərəkatı, fikrimizcə, 1930-cu illər modernizminin repressiya və II Dünya müharibəsindən sonra dünya ədəbi-bədii fikrində mövcud müxtəlif ədəbi təmayüllərinin Azərbaycan ədəbiyyatına gəlişməsi ilə birlikdə davamı idi, bir növ yeni zaman, yeni ədəbi mühit və ədəbi formata modifikasiyası idi.

Məlumdur ki, U.Uitmen ("Ot yarpaqları"), Ş.Bodler ("Şər yarpaqları"), A.Rembo ("Aydınlanma"), N.Hikmət ("Günəşi içənlərin türküsü"), A.Belıy ("Peterburq"), O.Mandelştam ("Daş"şeirlər), E.Verxarn, İ.Brodski, V.Mayakovski, P.Eluar, B.Brext, P.Neruda, B.Pasternak, Q.Apoliner və b. dünya poeziyasında modernizmin inkişafındakı xidmətləri danılmazdır. Dünya ədəbiyyatında müxtəlif məzmunda mənalandırılan modernizm hadisəsinin 1960-80-ci illər Azərbaycan poeziyası modelində başlıca tələbləri poetik assosiativlik və fəlsəfi-intellektualıq olmuşdur. Modern və ənənvi şeiri müqayisə etdikdə aydın olur ki, birincidə məzmun və formayaya novatorcasına yanaşmaq, ənənəvilikdən imtina, poetik axtarışlarda yeni bədii təsvir və ifadə, bədii dil vasitələri tapmaq, kainata, zamana, insana, ümumiyyətlə, canlı və cansız bütün varlıqlara "yeni göz"lə baxmaq, bədii sözün kəşf olunmamış çalarlarını tapmaq və s. kimi məsələlər poetik fikri assosiasiya yolu ilə çatdırmağa, şeir mətninin fəlsəfi-intellektuallığına yönəldilmişdir. Təbii ki, modernizmi əruz və hecadan imtina edib yalnız sərbəstdə yazmaq kimi düşünmək də sadəlövhlük olardı. Modernizm coğrafi məkandan asılı olmayaraq yeni poetik məzmun və forma, yeni poetik qavrayış və yeni estetik duyumla bağlı bir hadisə kimi özünü göstərirdi. Azərbaycan poeziyasında isə "Rənglər" şeir silsiləsi ilə "Rəsul Rza bu yolu açdı və altımışıncı illərin cavan şairləri həmin yolu hərə özünəməxsus tərzdə davam etdirdi" [2, s. 341]. R.Rza poeziyasını yalnız axtarış poeziyası deyil, kəşf poeziyası kimi qiymətləndirən Ş.Salmanov haqlı olaraq şairin novatorluğunu yalnız şeirin poetexnikasında - vəzn, qafiyə, poetika məsələllərinə bağlamamış, belə nəticəyə gəlmişdir ki, "... şairin dünyaya poetik-fəlsəfi baxışında, insanı fəlsəfi anlamda, fəlsəfi-mənəvi dərkdə əsas aparıcı bir keyfiyyətdə meydana çıxır. Şairin bütün poeziyasında onun poetik "mən"i - əsrin böyük hərflə yazılan insanının obrazı səviyyəsinə yüksəlir" [4, s. 21] Alim bu yeni poeziyanı Azərbaycan poeziyasında əsl insanın obrazını kəşf etmək səyi və pafosu hesab etmişdir

Son dövrün tədqiqatlarında bəzən altımışıncıların "estetik inqilabçılar və kəskin poeziya islahatçıları deyildilər", "anti-modernist idilər" kimi mülahizələrə də rast gəlmək mümkündür. Tənqidçi E.Akimova Y.Qasımbəylinin "Milli oyanış və özünəqayıdış lirikası" (2012) əsərində yer alan altmışıncıların modernist olmaması fikri ilə razılaşsa da, müəllifin altmışıncıların yenilikçi olmaması fikrinə etiraz etmişdir: "Bu dövr poeziyasının seçənəkliyinin zəminində dayanan başlıca amil fərdin ekzistensialist başlanğıcının güclənməsi, öz "mən"ini qabartmağa canatımı oldu. Hətta qlobal mənada olsa belə İnsana marağın önə keçməsi yeniliyin işartıları kimi əhəmiyyət kəsb etmirmi? Bu insanla birgə ədəbiyyata yeni baxış, dünyagörüşü, sinəsində narahat bir ürək gəzdirən qəhrəman daxil olmurdumu?" [7, s. 99-100]. Digər bir tərəfdən E.Akimovanın adı çəkilən tədqiqatda Y.Qasımbəylinin "60-cı illərdə lirikanın mahiyyətində baş verən ən mühüm yenilik – lirik yaşantının öz mövqeyini bərpa etməsi və şeirin tərkibində əsas element kimi meydana çıxmasıdır" mülahizəsini əvvəlki fikrin təkzibi kimi qiymətləndirməsini düzgün hesab edirik.

Azərbaycan ədəbiyyatşünaslığında (Y.Qarayev, T.Əlişanoğlu, V.Yusifli, Ə.Cahangir, E.Akimova, eləcə də digər tədqiqatçılar) belə bir fikir qətiləşmişdir ki, poeziyamızda modernizm ədəbi cərəyan kimi yox, ədəbi təmayül kimi özünü göstərmişdir. 1960-cı illərdə modern şeirlər olsa da, bu hadisə modernizm mərhələsini yaratmamış, milli poeziyamızda modernizmə keçid anı olmuşdur. Eləcə də bu onilliyin poetik mətnləri ilə Azərbaycan poeziyasında fəlsəfi-intellektual təmayülün əsası qoyulmuşdur. Modernizm estetikasına görə isə, poeziyada fərd və fərdi yaşantılar, subyektiv hiss

və duyğular, bədii "mən" ön plana keçməlidir. Lakin 60-cı illərin modern şeirində (eləcə də 20-30-cu illərin) insanın "mən"i, fərdi yaşantıları arxa planda qalır, insanın planetarlaşması, insana münasibətdə ictimai gerçəklik daha çox qabardılmış və bu, 70-ci illərdə də özünü göstərmişdir. 1920-30-cu illərdə Azərbaycan sovet ədəbiyyatşünaslığında modernizm burjua ideologiyasının ədəbiyyat və incəsənətdə təzahürü kimi zərərli sayılmış, ancaq modern tipli şeirlər hələ milliləşməyən sərbəst şeir praktikası ilə (daha çox Mayakovski, N.Hikmət, M.Rəfili) eyni vaxtda boy atmış, yeni cəmiyyət quruculuğu ilə əlaqədar daha çox inqilabi, tribunçu pafosda olmuşdur. 1960-70-ci illərin modernizmində isə artıq R.Rza təcrübəsi vardı və təbii ki, dövr və ictimai-siyasi mühitin verdiyi imkan daxilində, tam, mütləq olmasa da, düşüncələr daha çox insanın daxili aləmnə yönəlirdi. 90-cı illərin sonu, 2000-ci ilin əvvəllərindən isə "modernist şeir təmayülü yenidən poeziyamızda güclənməyə başlamışdı. Bunu hansısa bir ədəbi qrupun ("Baca", "+2" kimi ədəbi qruplar nəzərdə tutulur. – D.Cümənov) yaranması ilə əlaqələndirmək doğru olmazdı, sadəcə olaraq, bu meyillərin yenidən güclənməsi tarixi bir zərurət idi. 60-cı illərin modernistlərindən fərqli olaraq "yeni" modernistlər poeziyada tək-tük yox, dəstə halında peyda oldular" [2, s. 357].

Tədqiqatçının fikri ilə razılaşaraq, belə nəticəyə gəlmək olar ki, XX yüzillik boyunca - 20-30, 60-70, eləcə müstəqillik dövrü 90-cı illər modernizmin ədəbi cərəyan yox, bir ədəbi təmayül kimi Azərbaycan poeziyasında müəyyən fasilələrlə özünü göstərməsi "tarixi bir zərurət idi", "20", "60" və "90" keçidlərindən qaynaqlanmaqla, hər dəfə yeni cəmiyyət quruculuğuna, yeni insan münasibətlərinə, bütövlükdə, yeniyə və yeniliyə söykənməklə meydana çıxmışdır. Deməli, əslində Azərbaycan poeziyasında modernizm hadisəsi yalnız 60-cı illərdən başlamır, ondan əvvəl və sonra da olmuşdur, lakin "... Belə demək daha dəqiq olardı ki, Azərbaycan poeziyasında ilk dəfə məhz R.Rza modernizmə pəncərə açmışdır" [2, s. 341]. 1950-ci illərin ikinci yarısında Azərbaycan poeziya məkanında sərbəst şeir R.Rzanın "Lenin" poeması" ilə milli ədəbi formasını tapdığı kimi, 60-cı illərdə də modern şeir ("Rənglər" silsiləsi və b. şeirlər) milli status qazanmış, bu mənada sonrakı ədəbi nəsillərə "pəncərə açmışdır".

1990-cı illərin – müstəqillik dövrünün modernist şairlərinin bir qismi belə düşünürlər ki, ümumiyyətlə, Azərbaycan poeziyasında sosialist realizmi ədəbi cərəyanının mövcud olduğu sovet dövründə modernizmdən, modern şeirdən danışmaq düzgün deyildir. Çünki modernizmin "sənət sənət üçündür" prinsipi var, "70 illik sosializm modernizm calağı götürməz". 1991-ci ildə yaradılmış "Baca" ədəbi qrupunun üzvləri İ.Bayramoğlu, R.Qaraca, A. Yaşar 1992-ci ildə "Xəzər" jurnalının 1və 2-ci saylarında dərc olunan ədəbi manifestlərini Azərbaycan ədəbiyyatı tarixində modernizmin ilk ədəbi manifesti, "Baca"nı yeni dövr şeirinin ilk qaranquşu saymış, onun ardınca "2+", "Avanqard", "Pərvanə", "Nəfəs" kimi ədəbi birliklərin yarandığını qeyd etmişlər. Onların müsahibə və ədəbi manifestlərindən belə nəticəyə gəlmək olur ki, Azərbaycan ədəbiyyatı tarixinə düşəcək ilk modern şairlər də onlardır. Elmi-nəzəri tədqiqatlar isə yeni nəslin bu tip fikirlərini yanlış olduğunu göstərir. "Min ilin ayrıcında" məruzəsində müstəqillik dövrü

Azərbaycan poeziyasında meydana çıxan poetik mətnləri milli-realist, simvolik, modernist və postmodernist şeirlər olmaqla dörd qrupda ümumiləşdirən tənqidçi Ə.Cahangir modern şeirlər yazan Rasim Qaracanın Mikayıl Rəfilini özünə ustad elan etməsinə baxmayaraq, şeirlərində "rəsmlərini" çəkərkən qələmini Rəsul Rzanın "Rənglər"inə batırdığını yazır. V.Yusifli də Ə.Cahangirin fikirləri ilə razılaşmışdır: "Rəsul Rzanı ilk modernist kimi qəbul etməyən və bu "ilk " kəlməsini özlərinin yaratdığı "baca" ədəbi qrupunun üzvlərinə aid edən Azad Yaşarın, eləcə də Rasim Qaracanın bir çox şeirləri məhz Rəsul Rzanın "Rənglər"inin təsiri altında yazılmışdır" [2, s. 341].

"Poeziyanın yolları və illəri (1960-2000-ci illər)" monoqrafiyasında modern şeirin 60-cı illərdə Azərbaycan poeziyasında inkişafı məsələsini izah edən V.Yusifli N.Hikmətin "Rənglər" silsiləsində Rəsul Rza bir şair kimi özünü ötüb kemişdir", "qırx yaşına qədər o sadəcə şair idi, indi isə böyük şairdir"; İlya Selvinskinin bu silsilə haqqında "Rəsmdən fəlsəfəyə doğru hərəkətdir" kimi fikirlərini xatırladır, başadan-ayağa assosiativ təfəkkürdən doğan bu silsilənin birmənalı qəbul edil-

məməsinin səbəbini uzun illər eyni ənənədən "tərbiyələnən" oxucuların əşya və hadisələr, bənzəyənlə bənzədilən arasında uyğunluğa öröşdiklərini, bunu məqbul saymaları ilə (camalın günəşlə, boyun sərvlə, yerişin ceyran yerişi ilə müqayisəsi, dağ -ucalıq, vüqar, kainat –sonsuzluq timsalı) izah edir. "Halbuki assosiativ təfəkkür hər bir hadisəyə və nəsnəyə ağıla gəlməyən qəfil yönümdən yanaşır" - deyən tənqidçi-alim "Rənglər" silsiləsinin "Uvertura"sındakı:

*Rənglər xatirələr oyadır,*
*Duyğuları oyadır...*
*Gördüyümüzdən artıq görmək istəmsək,*
*Hər rəng adicə boyadır.*
*Rənglərin də musiqi kimi ahəngi var,*
*Ağrının, sevincin, ümidin də rəngi var...*
*Düşündükcə açılır,*
*Əlvan səhifələri rənglərin...*

Burada bir misra "gördüyümüzdən artıq görmək istəmsək, hər rəng adicə boyadır"-ümumən həm "Rənglər" silsiləsinin, həm də assosiativ poeziyanın mahiyyətini ifadə edir" [2, s. 343]. Fikrimizcə, S.Vurğun kultunun və ədəbi məktəbinin hələ güclü olduğu bir dövrdə ədəbi hadisə olan bu şeir silsiləsi həm də çoxəsrlik poetik ənənənin, ənənəvi şeirin bir növ "sınması", bədii dərkin oxucunun ixtiyarına buraxılması, sərbəst düşüncənin hüdudlarının hüdudsuzluğa çevrilməsi, bədii-fəlsəfi təfəkkür quruculuğuna stimul idi, bir tərəfdən də azərbaycanlı şairin timsalında Azərbaycan bədii, estetik-fəlsəfi fikrinin dünya ədəbiyyatına çıxışından xəbər verirdi.

1960-90-cı illər poeziyasında modernist təmayüllü şeirin başlanğıc mərhələsini yaşadığı üçün aparıcı olmaması fikrində olan tədqiqatçıların fikrincə, "elə yenilikçi və novator şair kimi tanınan Ə.Kərimin, F.Qocanın, Ə.Salahzadənin, V.Səmədoğlunun, F.Sadığın şeirlərində bu istiqamət yalnız birxətli inkişaf edirdi. Ancaq burada həmin şeirləri ayrıca bir təmayül kimi fərqləndirən, ənənəvi şeirdən ayıran cəhətlər göz qabağında idi [2, s. 349]. V.Yusifli "birxətli inkişaf" deyərkən modernist şeirin poetikasının onların şeirində yalnız məhdud bir bucağı əhatə etdiyini yazır, daha çox şeirin bədii təsvir vasitələrini dəyişdirməklə assosiativ təfəkkürün dinamik, mütəhərrik görünməsi ilə, ən çox konstruksiya-quruculuq işləri görmələri ilə izah edir, İ.İsmayılzadənin "Yaşıl yarpaqlar", Ə.Salahzadənin "Şamaxı gecəsi" şeirlərini nümunə gətirir.

E.Akimova isə bunu yalnız həmin dövrdə poeziyaya qədəm qoymuş cavan şairlərin mətnləri əsasında təsdiqləməyi doğru hesab etməmişdir. Alimə görə, sovet ideologiyasının ən alovlu tərənnümçü və təbliğatçıları belə 60-cı illərdən başlayaraq yenidən doğula bilərlər: "Sovet ədəbiyyatı tarixində hər cür ideolojidən kənar, xalis poeziya nümunəsi kimi intişar tapan Əli Kərimin şeirləri ilə bahəm "Lenin" poemasının və bu kimi bir çox pafoslu şeirlərin müəllifi olan R.Rzanın da şeirləri əsl poetik mətnlər olaraq ərsəyə gəlir" [7, s.109]. Eyni zamanda, tədqiqatçılar Ə.Kərimin "Xətlər variasiyaları" silsiləsindən olan şeirləri, "Fraqmentlər", "Kürə yağış yağırdı" kimi nümunələrində modernist düşüncənin əlamətlərinin olduğunu da inkar etmirlər. Bu tipli poetik mətnlər məlum şeir həqiqətlərini "sındırır", ənənəvi şeir çərçivələrini "dağıdır"dı:

*Otuzdan çox yaşamışam...*
*Göyçayda,*
*Bakıda,*
*Moskvada,*
*Tiflisdə.*
*Arabada, təyyarədə,*
*Gah qum üstdə.*
*Gah dənizdə.*
*Sevgi toranında,*
*Mühazirə salonunda.*
*Sevgilimlə bir-birimizə deyəcəyimiz*
*iki söz arasında.*
*Xəstə olarkən*
*Həkimin mənə etdiyi çarasında.*
*Bəzən baş tutmayan şeirimin*
*Dağılmış divarlarının xarabasında,*
*Bəzən söz yarışında*
*Bəzən ölüm sözünün polyar qışında...*

Azərbaycan poeziyasında R.Rzadan sonra İ.İsmayılzadə və Ə.Salahzadənin şeirlərindəki assosiativ təfəkkürün daha çox mütəhərrikliyini nəzərə alan bəzi tədqiqatçılar onlardan sonra təşəkkül tapan modern şeirdə poetik təfəkkürün məhz bu iki şairdən rişələnməsi qənaətindədirlər. E.Akimova Ə.Salahzadə və İ.İsmayılzadə yaradıcılığı üçün xarakterik poetik nümunələrlə bu mülahizəni təsdiqləyir:

*Ağ bir zanbaq kimi açıldı səhər*
*Şəfəqlə suladı*
*Susəpən kimi*
*Günəş zanbağı.*
*Şəfəq içə-içə qızardı zanbaq.*
*Qızlar xəbər tutmadılar*
*Zanbaq səhərdən:*
*Yoxsa ayaqlarını dirəyib bir başmağa,*
*Oğlanları salardılar dağa-daşa...*

***(Ə.Salahzadə)***

*Yuyur çıraqları noyabr ayı,*
*Ehmalca-ehmalca yerə döşəyir.*
*Ehtiyatlı olun, ayaqlamayın,*
*Lampalar qırılar, qaralar meşə...*

***(İ.İsmayılzadə)***

Tədqiqatçı belə nəticəyə gəlir ki, "Şairlər bir-biri ilə heç bir uyğunluq olmayan predmetlər arasında məna əlaqələri yaratmaqla bir tərəfdən, epitetlərlə zəngin klassik poeziyaya xələflik edirdilərsə, digər tərəfdən, təxəyyül və fikir meydanına daha sərbəst daxil olmaları, seçdiyi obrazları, ifadə üsulları, yanaşma və mənalandırma tərzi ilə yeni bir təmayülün əsasını qoyurdular" [7, s.110-111].

Ə.Əsgərlinin fikrincə, "R.Rzanın insan fəlsəfəsi – təfəkkür, idrak fəlsəfəsi "Rənglər"də kamala dolur," [8, s. 236]. E.Akimova "Rənglər" silsiləsi "İnsana dönüşün, dünyaya, adi həyat detallarına şair tərəfindən verilən individual yozumun, onun fəlsəfi-intuitiv dərkinin nümunələri" [7, s.100] hesab edir. 1960-cı illərin şeirini əvvəlki onilliklərlə müqayisədə "uzun illərin inzivaya çəkilmiş insan maraqlarını bərpa etməyə nail olan" poeziya kimi qiymətləndirən tənqidçi-alim E.Akimova "Çağdaş poeziya və ədəbi təmayüllər" (2018) monoqrafiyasında yazır ki, R.Rzanın adında insan sözü olan "Bir gün də insan ömrüdür", "Yaşayan insandır", "Açın qapıları, insan gəlir", "Burda bir insan ölüb", "İnsanlar", "İnsan haqqında", "İnsanın qüdrəti" və s. kimi şeirləri ilə yanaşı adında insan sözü olmayan, "başqa mətləblər vəd edən" "Sarı dana və balaca qız" şeirində insan və insanlıq fəlsəfəsi bədii mətndə önə çıxarılır.

R.Rza fenomeninin başqa bir hünəri də 1960-cı illərdə öz poetik yollarını bəlirləyən ədəbi gəncliyin müdafiəsinə qalxmasındadır. Ə.Kərim, gənclərdən Y.Həsənbəyov, F.Qoca, Ə. Salahzadə, İ.İsmayılzadə yaradıcılığı ilə bağlı mətbuat səhifələrində "dabanbasma" bir neçə tənqidi məqalənin çap olunduğunu yazan Rəsul Rza "Qayğı sözü və qayğı özü" məqaləsində ədəbi tənqidin tez-tələsik, əsaslandırılmayan, əsəbi mülahizələr irəli sürdüyünü, onların şeirlərindən ayrı-ayrı keyfiyyətsiz sətirlərin, sözlərin, ifadələrin seçilərək gülüş hədəfinə çevrilməsinin yolverilməz olduğunu söyləmiş, ədəbi gəncliyi müdafiəyə qalxmışdır. S.Rüstəm və N.Xəzrinin Rəsul Rzanın "İzvestiya" qəzetində (1964-cü il 6 oktyabr) "Müxtəliflər və yaxşılar" məqaləsindən bu gəncləri ifrat dərəcədə tərifləmələrindən narazı olduqlarını ("Qayğı və tələbkarlıq", "Ədəbiyyat və incəsənət" qəzeti) bildirmişlər. Rəsul Rza ədəbi tənqidin parodiya, dumanlı adlandırılan "Fraqmentlər" (Ə.Kərim) şeirini və mətndəki "otururam ömrümün bir parçasının kölgəsində", "düzmüşük yetişmiş dəqiqələri on dörd günlük ay-boşqaba, yeyirik şirin-şirin", "elə saatım var ki, ağac olub bir dost bağında", "yaşamışam... bəzən ölüm sözünün polyar qışında" və s. kimi orijinal poetik ifadə tərzini "həzm edə bilməyənlər"ə tutarlı cavablar vermiş, həmin misraların zahirən görünməyən daxili poetik poetensialını izah etmişdir: "Əli Kərimi tənqid edən müəlliflər "Fraqmentlər" şeirinin qırılmaz bədii məntiqlə bağlanmış misralarını bir-birindən ayırır, ümumi kontekstdən çıxarır, süni dolaşıqlıq yaradırlar. Onlar şairin işlətdiyi "sevgi toranında" ifadəsini bəyənmirlər. Məgər dilimizdə səhər toranlığı, axşam toranlığı yoxdurmu?" [9, s.131].

Rəsul Rza (S.Rüstəm və N.Xəzridən fərqli olaraq) fikrini əsaslandırır; sevginin hələ ilk oyanış çağında oması, aydın, dərin hiss yaratmadığı, büllurlaşmadığı üçün toranlığa bənzətməyi nəinki mümkün sayır, bu poetik obrazı, təşbehi təqdir etməyi lazım bilir. Şair bu hücumların qəsdən yaradıldığına, süni dolaşıqlığa işarə vurur, qələm yoldaşları S.Rüstəm və N.Xəzriyə üzünü tutaraq "duman çox olmadımı?", "bu dumanı yoxdan yaratmaq nəyə lazımdır?", "Bu "duman"lar ittihamı ilə ağır illərin gedər-gəlməz yolunda azmı əziz qələm yoldaşlarımız yox oldu!" deməklə, fikrimizcə, 60-cı illər olmasına baxmayaraq, hələ ədəbiyyatda ideoloji təzyiqin tam yox olmasına, eləcə də əvvəlki illərin repressiyasına işarə etmişdir.

Azərbaycan poeziyasının 1980-ci illər Rəsul Rza ədəbi məktəbində lirik qəhrəmanın

həyata analitik-fəlsəfi, "insan-kainat-zaman" kontekstində münasibətində, həyat lövhələrinin poetik şərhində cığırdaşlarına yol göstərən Rəsul Rza haqqında ədəbi tənqid yazır ki, "Həyat haqqında Rəsul Rzanın kövrək lirik fəlsəfi tutumlu misraları narahat bir ömrün son akkordları kimi səslənir:

*Ömür bir küçədir ki,*
*Birtərəfli hərəkət*
*Onun sərt qanunudur*
*Günlər onu hər qarış udur...*

Zamana, ömrə aşılanan mənanın yaşadığımız günlər üçün ictimai siqləti lirik qəhrəmanın həyata müasir sosial problemlər mövqeyindən yanaşması ilə bağlıdır" [10, s. 46].

Assosiativ poetik təfəkkür və bu cür obrazlı təfəkkürdə psixoloji çalarlar, sərbəst düşüncə tərzi, intellektuallıq, yeni məzmun və forma, yeni obrazlar, ana dilimizin ruhundan qidalanan yeni leksik vahidlər, ifadələr və deyim tərzi və s. kimi məsələlər Rəsul Rzanın fərdi yaradıcılıq üslubunun göstəricisinə çevrilmişdi. 1960-cı ildə Rəsul Rza bir zaman yaşadığı Hüsü Hacıyev küçəsinə ithaf etdiyi "Mənim küçəm" şeirində küçə, asfalt örtüyü, ağaclar, səkilərlə köhnə tanışı kimi salamlaşır:

*"Yay günləri*
*Qara zənci qul kimi*
*Yanımdan ayrılmayan kölgəmi*
*Çəkib aparırdım*
*Belədən belə.*
*Fit çala-çala,*
*Oxuya-oxuya,*
*Gülə-gülə.*
*Kənarları əyyaş dişləri kimi tökülmüş*
*Səkilərində*
*Sən tez-tez*
*Yalın ayaqlarımdan*
*İnsan hərarətini duyurdun..." [11, s. 57].*

Həyat, ömür haqqında lirik düşüncələrin fəlsəfi tutumunun konkret hadisələr, predmetlər və adi məişət detallarının şərhi yolu ilə təqdimatı 80-ci illər poeziyasının nəzərə çarpan bədii keyfiyyəti kimi qeyd olunur. Rəsul Rzada adi bir insan ömrünün küçə ilə müqayisədə poetik mənalandırılması isə Vaqif Cəbrayılzadənin "Ömrümüzün o başına" şeirində başqa bir orijinal uyarını tapır, atlı qarışqa və onun keçdiyi yolda fərdin taleyinə münasibət ictimailəşir, bəşəriləşir:

*"Qarış-qarış hara gedir*
*Bu yerişdə, bu duruşda*
*Bu gedən atlı qarışqa?!*

*Nə xəbərimiz var*
*bu gedən atlı qarışqa*
*bəlkə bu qara daşdan da qoca,*
*bu qara yoldan da qoca..." [12, s. 79].*

Sonrakı misralarda dağların göyünün quş qanadından, torpağın üzünün at nalından, çiçəklərin üzünün ay işığından, atlı qarışqanın yollardan doymadığı, lirik qəhrəmanın da bütün bunlardan doymadığını ədəbi tənqid belə izah edir: "Bu mənəvi doymazlığın ictimai səbəbləri indiki dövrün özü ilə gətirdiyi mənəvi-əxlaqi problemlərin obrazlı ifadəsidir. Ay işığına, quş qanadına, at nallarına könül ehtiyacı təbiətin, mənəvi keçmişin ehtiyacları kimi mənalıdır" [10, s. 47-48].

1960-80-ci illərin poeziyasında Məmməd İsmayılın poetik təbiət etibarilə B.Vahabzadə, H.Arif, N.Xəzri, M.Araz poeziyasına daha çox həmahəngliyi qeyd olunursa, Fikrət Sadığın isə şeirdə Rəsul Rza poetik məktəbinin təmsilçisi olması göstərilir: "Fikrət Sadıq şeirə Rəsul Rza poeziyasının təsiri ilə gəlmiş, xeyli müddət ustadın yaratdığı poetik istiqamət üzrə irəliləmiş, bu yolda uğurlar da qazanmışdır. … Ancaq Fikrət Sadıq təkcə bu məktəbdən faydalanmamışdır" [2, s. 155]. Tənqidçi-alim Sabir Rüstəmxanlının "Taleyin acığına" kitabına yazdığı "İşıq və xeyirxahlıq şairi" adlı ön sözdə Fikrət Sadığın "Şirvanın klassik şeirməktəbindən daha çox aşıq şeirinə, Qurbanilər, Ələsgərlər məktəbinə, digər tərəfdən sərbəst şeir ənənələrinə, Rəsul Rzaya bağlıdır" fikirləri ilə razılaşır. Şairin "Üçüncü simfoniya" şeirində Rəsul Rzanın "Rənglər" şeir silsiləsinin təsiri açıq duyulsa da, onu orijinal şeir – Fikrət Sadıq poetik təfəkkürünün görüntüsü sayır. Səməd Vurğun ədəbi məktəbinə mənsub Məmməd İsmayıl yalnız xalq poeziyası istiqamətində, hecanın müxtəlif şəkillərində yazaraq poetik istedadını cilaladısa da, Fkrət Sadıq klassik (əruz), xalq şeiri üslubu (heca) və sərbəst səpkidə şeirlər yazdı. Lakin etiraf etmək lazımdır ki, şair Rəsul Rza ədəbi məktəbinin təmsilçisi kimi daha möhtəşəm göründü, poetik isteda-

dını, daxili ovqat və duyumunu sərbəst səpkili şeirlərdə üzə çıxara bildi.

R.Rza və Əli Kərimin yaradıcılıq üslublarını elmi-nəzəri cəhətdən tədqiq edən tədqiqatçı şair A.Abdullazadə belə nəticəyə gəlmişdir ki, poetik fikrin çatdırılması üsullarında hər iki şair arasında yaxınlıq var. Poetik fikri ayrı-ayrı misralar və bitkin parçalarla (R.Rzada: Mən küləyəm, əsməsəm, kim bilir ki, mən varam", Mən istəyirəm: Güllər açılsın, güllələr açılmasın"; Əli Kərimdə: "Yuxumu evdən qovub şeirim keçib yerinə", "Dinib danışmır ki, gözəllik ürkər" və s.), yaxud şeirin bütöv məzmun və nəticəsindən almaq yolu ilə ("Daş", "İtki", "Nida", "Kosmik arzu", "Yox, mənə deməyin", "Bir mövzu", "Adamda sifət") yaradılmasında Əli Kərim üslubu Rəsul Rzada ("Dəniz nəğmələri", "Bəhlul, İsgəndər və mən", Dana və balaca qız" və s.) olduğu kimidirsə, assosiativlik ("Fraqmentlər", "Od tutub yandı içim", "Vəsiyyət", "Babəkin qolları" və s.) "R.Rza yaradıcılığındakı kimi kəmiyyətcə zəngin deyil: "Əlbəttə, bu cəhət hər iki şairin yaradıcılıq imkanlarından daha çox, ömrün və bununla bağlı olan bədii yaradıcılıq təcrübəsinin verdiyi imkanlarla da ölçülməlidir. Keyfiyyət və üslubi müstəqillik baxımından isə Əli Kərim şeiri bu mənada heç kəsə güzəştə getməyəcək dərəcədə zəngin yaradıcılıq nümunəsidir" [13, s. 199 ].

A.Abdullazadə R.Rza yaradıcılığında insanın konkret zaman və məkan anlayışından kənara çıxaraq bəşəriləşdiyi üçün bəşəriliyi, eləcə də də fikir, hiss və obraz və ümumiləşdirmənin son dərəcə lakonikliyi, poetik fikrin ayrı-ayrı detallarla misrada, yaxud bütöv mətndə məzmun və nəticədən doğması şəklində təqdimini, poetik fikrin assosiasiya yolu ilə çatdırılması kimi bir sıra fərdi cəhətləri şairin poetik üslubunu müəyyən edən və şərtləndirən əsas cəhətlər olmasını "İnsan şəkli", "Mən istərəm", "Mən torpağam", "Soruş", " Bir gün də insan ömrüdür" (poema), "Rənglər" silsiləsi və s. kimi mətnlər əsasında izah etmişdir. "Daş" şeirini nəinki Əli Kərimin eləcə də müasir Azərbaycan poeziyasının uğurlarından sayan tədqiqatçı R.Rza kimi Əli Kərimin də bəşəri ümumiləşdirmələrdə milli kimliyini hiss elətdirdiyini yazır və belə nəticəyə gəlir ki: "Əli Kərimin bəşəri ümumiləşdirmələrlə zəngin olan poetik qənaətləri Nazim Hikmət, V.Nezval, Pablo Neruda və Rəsul Rza şeirində olduğu kimi millilikdən beynəlmiləlçiliyə doğru irəli və geri iki müxtəlif, lakin bir-birini tamamlayıb müəyyən edən istiqamətlərdə öz ifadəsini tapır. ... hər cür vəziyyətdə bəzən bir kiçik detal, bəzən də assosiativ şəkildə öz milli mənsubiyyətini büruzə verir" [13, s. 188-189]. Arif Abdullazadə bu tip mövzuların R.Rzada müxtəlif ölkələrdəki səfər təəssüratlarından yarandığı halda, Ə.Kərimdə xarici ölkələrə getmədən, səfərsiz, yalnız təxəyyül əsasında formalaşmasını, bu səbəbdən də Ə.Kərimin R.Rzadan fərqli olaraq coğrafi məkan və adlara az müraciət etməsini müəyyənləşdirmişdir.

Poetik mətnyaratma prosesində assosiasiyaya daha çox meyil etmək R.Rza, eləcə də bu poetik məktəb nümayəndələrinin yaradıcılığı üçün əsas səciyyəvi cəhət olmuşdur ki, bu da onları S.Vurğun və eləcə də digər ədəbi məktəblərdən əsaslı şəkildə fərqləndirmişdir. Bir insan şəkli asacağam/bir yanında Nəsimi/dabanından soyulandan sonra/Bir yanında məşəl təki yanmış Azəri qızı/tunc heykəli qoyulandan sonra/Bir yanda Cordano Brunonun külü/Bir yanında Məmmədhəsən kişi/ömrü, günü yollara tökülü/Yuxarıda kosmopolit göy/Aşağıda sərhədlə kilidlənmiş ölkələr –deyən şairin "asdığı", "çəkdiyi" şəkillər ilk baxışdan başqa-başqa təfərrüatlar yaratsa da:

*"Bir yanda Ofivensim –*
*Minlərlə insan, beli bükülü.*
*Bir yanda yolları insanla döşənmiş –*
*Köhnə Sibir,*
*Kalıma.*
*Bir yanda Xirosima - ölü.*
*Bir tərəfdə*
*Fərhad, Şirin,*
*Kərəm, Əsli,*
*Bir tərəfdə*
*İsrafil, Qafur*
*Qastello, Lorka –*
*Prometeylər nəsli..." [11, s. 36-37].*

lakin oxucu bu əşya və hadisələrin arsında bir körpü qura bilir və bununla, hissələr, yəni ayrı-ayrı rəsmlər tamlaşır, müxtəlif dinlərin, irqlərin, xalqların nümayəndələri, məkanlar birləşir, R.Rzanın çəkdiyi bütöv poetik tablo (təlqin etmək istədiyi poetik fikir) canlanır: bütün zamanlardan keçən planetar səciyyəli insan və onun ömür yolu. Əslində bu, şairin öz zamanından bütün zamanlara və insanla-

ra, insanlığın tarixinə poetik-fəlsəfi baxışı idi, insanlıq konsepsiyası idi. Tədqiqatçı-şair Arif Abdullazadə yazır ki, "R.Rzada bu cəhət (assosiasiya nəzərdə tutulur – D.Cümənov) bəzən ayrı-ayrı misra, beyt və bənd şəklində, bəzən də bütöv bir şeirdə mövcud olur. Belə şeirlər oxucuda müəyyən bir hiss və ya hislər silsiləsinin yaranmasını təmin etməklə bərabər, onda həyat hadisələrini daha dərin və mürəkkəb şəkildə anlamağa çalışmaq, onların konkret poetik mahiyyətini dərk etmək, ümumiyyətlə, ən incə mətləblər ətrafında düşünə bilmək qabiliyyəti də tərbiyə edir" [13, s. 128].

Poetik assosiativlik, assosiativ bədii-fəlsəfi təfəkkür intellektual poeziya ilə qarşılıqlı əlaqədədir. O mənada ki assosiativlik intellektual şeirin əsas cəhətlərindən biri kimi çıxış edir. Şeirdə intellektuallıq şeirdə elmilik anlayış və tələbinə yaxındır, lakin elmilikdən daha çox, demək olar ki, məlumatlılığı, ensiklopedikliyi, müxtəlif sahələri (əsasən, tarixi, etnoqrafiyanı, müxtəlif mədəniyyətləri, dini, incəsənəti, ədəbiyyatı və s.) bilməyi tələb edir. Məsələn, R.Rzanın "İnsan" şəkli şeirində "məşəl təki yanmış Azəri qızı", "Cordano Brunonun külü", "Məmmədhəsən kişi", "kosmopolit göy, "Ofivensim - minlərlə insan, beli bükülü", "yolları insanla döşənmiş - Köhnə Sibir, Kalıma", "Xirosima – ölü", "Fərhad, Şirin, Kərəm, Əsli, İsrafil, Qafur, Qastello, Lorka - prometeylər nəsli" kimi ifadələr bu insan və məkan adları və onlarla bağlı hadisələri bilməyi, yəni intellektuallıq tələb edir.

Modernizmin ən səciyyəvi xüsusiyyətlərindən biri də zaman, hadisə və təfərrüata deyil, detala üstünlülük verməleridir. R.Rza ədəbi məktəbinin təmsilçisi Fikrət Qocanın "Risk" şeirində lirik qəhrəman da lüğətdən adi bir sözü - risk sözünü götürüb onun haqqında fikir yürüdür, "bir üzlü, iki tirə" kimi ikibaşlı söz sayır, ilk dəfə bir qumarbazın kəşf etdiyini ("ya apara, ya gətirə"), ata-ananın kimliyini bilmədən doğulmağın özünün risk olduğunu deyir. Şeirdə "Bəlkə boynu kəndirsiz olmaq olar, Bəlkə yana burulmaq olar" kimi misralar mətnaltı ictimai-siyasi məna kəsb etməklə müstəqillik mənasını ifadə edir, "boynu kəndirsiz", "yana burulmaq" ilk baxışdan nəzərə çarpmayan "risk" sözünün bətnində yer alır. Ayaqqabı, qan, qan içən, çaxır və s. kimi zahirən bir-biri ilə əlaqəsiz ayrı-ayrı lövhələr canlandırır:

*"Ayaqqabını ayağa geyərlər*
*Qan da qırmızıdı,*
*Qan içən də var.*
*Amma ayrı şeydi çaxır...*
*Və ilaxır, və ilaxır..." [14, s. 69].*

"Rənglər" silsiləsində R.Rza şirmayı rəngi (Afrikanın dərdi/Babmın saqqal darağı), ağ rəngin sevinc çalarını bir-birindən uzaq detallarla asosiasiya etdiyi kimi (Quzey qarı/Bir körpənin südə bulaşmış üz-gözü/Şorbaya yanböyür batırıb çıxardığı/qaşıqdan aldığı ləzzət/Şübhələrin dağıldığı gün/Dost əli...), F.Qocanın "Risk" şeirində də ilk baxışdan bir-biri ilə uyarsız görünən bu misra –sözlər arasında poetik təfəkkürdə assosiasiya yaradılır. Qan, qan içən birdir, çaxır ayrıdır, lakin "fərqli olanlar"ı birləşdirən qırmızı rəng olsa da, əlamət sonrakı misralarda keyfiyyətə keçir. Arazın adı çəkiləndə artıq oxucu Azərbaycanın ikiyə bölünməsini, tökülən qanlar, Rusiya və İran kimi imperiya qaniçənləri yaddaşında bərpa edir. "Çaxır" isə onların inkarını yaratmaq, əlamət oxşarlığının heç də həmişə eyni keyfiyyətə malik olmadığını diqqətə çatdırmaq üçün istifadə edilən detaldır. Şair dövrün risk axtardığını, bəzən tarixin, ölkənin də riskdən doğduğunu yazır, Araz kimi balaca bir "soyuq" çayın böyük bir xalqın yolunu kəsməkdə "qaynar" riskə girməsi ilə buna dözən Od övladının soyuq mütiliyi qarşılaşdırılır. Od övladının soyuq mütiliyi də şeirdə risk kimi görünür. F.Qoca sonda "Heç soyuq da deyil, Elə öz fikirlərimdən üşənirəm" deyə nəticəni oxucunun ixtiyarına buraxır. Şairin "Şərq miniatürləri qədər zərif klassik rübailəri, bizim bayatılar, yapon hoqquları kimi qısa, lakonik məna tutumlu" son şeirlərini 1960-cı illərlə müqayisə edən yazıçı Anar öz təəssüratlarını belə ifadə ediry: "Ümumi qənaətim belədir ki, Fikrət Qoca həm tanış Fikrətdi, həm də yeni Fikrət. Fikrətin ən yeni şeirlərində vaxt etibarı ilə çox uzaq olan "Vals"ın ritm oynaqlığı da var, çox uzaq "Risk"in ictimai kəsəri də..." [15, s. 5].

Abbas Abdulla avtobioqrafik xarakterli "Kimliyim" şeirində özünün keçdiyi ömür yolunu poetik lövhələrlə əks etdirərkən, adi bir detalı - üzüm giləsini bədii detala çevirir. Vaxtilə on beş yaşında bazarda satdığı üzümlə "Uyğusuz gecələrimi satırdım/Dostlarımla oyunumu satırdım/Boyumu-buxunumu satırdım/Fikrimi-düşüncələrimi satırdım"-deyən

şair bütün diqqəti üzüm gilələrinə yönəldir:

*Bir sözlə, satdığım üzümün gilələrində*
*Mənim olmayan cocuqluğumu satırdım,*
*İtən sevincimi, göz yaşalarımı satırdım,*
*Anama-bacılarıma örpək alırdım,*
*Bir mahnım da vardı:*
*"Qondurası qırmızı,*
*Ölürəm, a dağlar qızı..." [16, s. 15].*

Abbas Abdulla şeirlərinin dilini nəzərdən keçiridkdə heca ilə sərbəstin qovuşuğundan yaranmış üslubi xüsusiyyətlər, heca ənənəsinin güclü təsiri, qafiyəyə meyillilik aydın hiss olunur. "Cocuqluğumu satırdım, İtən sevincimi, göz yaşalarımı satırdım", "Örpək alırdım", eləcə də sözləri onun olmasa da, parçaya əlavə edilmiş son misralar şeirə gəraylı ruhu gətirir. "Sonsuzluğa gedən karvan" (1988) adlı şeirlər kitabına yazdığı "Xoş gördük" adlı ön sözdə layla, bayatı mühitində böyüdüyünü yazan şair Ukraynanın "Dnipro" jurnalının sorğusuna "Səməd Vurğun poeziyası mənim üçün ana südüdür, Rəsul Rza poeziyası isə havadır, sudur, çörəkdir" [16, s. 9] verdiyi cavabda ənnədən novatorluğa doğru boy alan öz poetik yolunu açıq şəkildə bəyan etmişdir. Abbas Abdullanın modern tipli şeirlərində bir publisistik üslubi çalar görünməkdədir:

*"Borçalıda*
*Bolnis-Kəpənəkçi kəndindən*
*Abdulla ağanın oğluyam,*
*Anam: Salatın xanım Daşdəmir qızı.*
*Dünyaya gəlişim:*
*1940-ın mayısı..." [16, s. 14].*

Şeirin bütün parçaları, demək olar ki, bu tərzdə davam edir və qoşa nöqtə, tire kimi durğu işarələrinin də poetik mətndə publisistik ruhun görünməsində az rol oynamır.

Söz çevikliyi və lakoniklik, poetik fikrin yığcam ifadəsində maksimalizm Rəsul Rza ədəbi məktəbinə məxsus poetik dil-üsub xüsusiyyətlərindəndir. Düzdür, lakoniklik, fikrin yığcam ifadəsi bütövlükdə söz sənəti ilə bağlıdır və ta qədimdən mövcud olmuşdur. Ancaq Rəsul Rza və bu poetik məktəb nümayəndələrində söz çevikliyi, lakoniklik ənənvi şeirdən fərqli olaraq, assosiasiativ təfəkkürdən doğur və bir növ assosiasiya prosesi özü bunu tələb edir, şairi buna məcbur edir. Məsələn, R.Rzanın "İnsanlar" şeirindəki kimi:

*"Doyumsuz gözlər,*
*Duyumsuz ürəklər.*
*Bağlı qollar,*
*Ağır yüklü kürəklər.*
*Yüksəliş pillələri,*
*Qazanış zirvələri.*
*Ağlın, zəkanın*
*Neçə ölümsüz əsəri.*
*Mənim qayğım,*
*Mənim gucüm,*
*Mənim sınağımdır.*
*Mənim çağımdır..." [11, s. 40].*

Rəsul Rza ədəbi məktəbinə mənsub və sonradan Azərbaycan poeziyasının dekadentizm ədəbi təmayülünü təmsil edən V.Səmədoğlu 1962-ci ildə yazdığı bir şeirdə poetik ünvanını lakonik şəkildə ifadə etmək üçün bir qədər də irəli gedərək poetik fikrin maksimal yığcamlığına nail olmaq üçün artıq söz və ifadələrdən, şəkilçilərdən "qaçır", lakin söz-misraların xüsusi məntiqi ardıcıllıqla düzülməsi hesabına poetik mənanın daxili tamlığı qorunur:

*"Mənim ünvanım:*
*Nəhayətsizlik.*
*Zaman.*
*Məkan.*
*Dünən,*
*Bu gün*
*Və sabah.*
*...Qalaktika:*
*Günəş sistemi,*
*Yer kürəsi,*
*Torpaq..." [17, s. 9].*

Zaman və məkan sərhədlərini aradan götürən şairin misradan-misraya ümumidən xüsusiyə keçidi aydın görünür: Qalaktika – Günəş sistemi – Yer kürəsi – Torpaq və s. Hətta ünvan şeirə qədər davam edir: Azərbaycan/Bakı/Sakit bir küçə/Ev dörd, mənzil otuz yeddi/Üçbucaq masa/Kağız və qələm/Şeirlər...

F.Qocanın "Qatar" şeirinin də poetik mətni başdan-ayağa maksimal lakoniklik üzərində qurulmuşdur. Şeirdə qatar bir bədii detala çevrilir, şair onu "yerişini" zamana bənzədir, vaxtlarla müqayisə edir, lakin sanki bu tələskənlik, sürətli "qaçış" və onun tez-tez çıxartdığı "tapar-tapar"səsi şeirə hopur:

*“Гачыр гатар,*
*Учур гатар,*
*Тараг-тараг,*
*Дцшцр галыр*
*Полад изи.*
*Йоллар иля —*
*Дараг-дараг*
*Йерин цзц...” [14, s. 142].*

Sonra “qачыр гатар”, “учур гатар”, “учур кцляк” kimi misralarda küləyin uçması ilə qatarın sürəti zamanın, ömrün sürətinə dönür. Fikrimizcə, qatarın sürətli hərəkəti və bu hərəkət prosesində “taraq-taraq” səsinin anidən və birdən “çalınması” poetik fikrin də maksimal yığcam misralarla ifadəsinə, forma baxımdan da misraların “qırıq-qırıq”, “kəsik-kəsik” olmasına, yəni hər sözün bir misraya dönməsinə yol açır:

*“Гачыр,*
*Учур*
*Вагон-вагон*
*Цряк,*
*Арзу,*
*Цтид,*
*Нисat…*

*…Мян затанат,*
*чатын тяня,*
*Тутун тяни...*

*Чатан чатыр!*
*Галан галыр!” [14, s. 142].*

Hər biri bir misrada verilən “Цряк”, “Арзу”, “Цтид”, “Нисat” və s. sözlərin hər biri bir “taraq-taraq”a dönür. Maraqlıdır ki, intonasiya və ritm poetik mətndə bədii fikrin sürətli qavranılmasına imkan yaradır, həttа üslubi keyfiyyətə, şeirin bədii enerjisinə çevrilə bilir.

Rəsul Rza ədəbi məktəbinin nümayəndəsi Fikrət Sadığın folkor və mifoloji motivlər zəngin “Göy-yer” şeirində, ellipsis, lakoniklik bütöv bir dünya mənzərəsinin yaranmasına şərait yaradır:

*“Göy-yer –*
*Dünya yaranandan*
*Əlbir, dilbir.*
*Elədiklərini özləri bilir.*
*Qarışma gəl, Göylə-Yerin işinə!*

*Əbədi qardaşdı onlar.*
*Yoxsa bu yağışın sənə,*
*Bir isti-soyuğu var?!” [18, s. 31].*

Ümumiyyətlə, poetik assosiasiyadan yaranan lakoniklik mətndə əsas fikir və məzmunun “açar”ına çevrilən söz və ifadələrin işlənməsini tələb edir ki, bu da şeiri əlavə söz yüklənməsindən xilas edir, eyni zamanda bədii qavramanı sürətləndirir.

R.Rza ədəbi məktəbinin əsas dil-üslub xusiyyətlərindən biri də orijinal, yeni bədii dil vasitələrini, yeni poetik məcazları “kəşf etmək”dir. Yeni poetik forma axtarışları, əslində, tarixi-poetik ənənədən qaçmaq novatorluqla yanaşı modern şeirin tələblərindən birinə çevrilmişdi. Yeni, orijinal məcazlar, təşbehlər, metaforlar və fərdi poetik obrazlardan istifadə imkanları da şairin novator fərdi poetik üslubun göstəricilərindən sayılırdı. Bu baxımdan R.Rza ədəbi məktəbinin davamçılarını nəzərdə tutan tədqiqatçı E.Akimova “Şeirin bədii təsvir və ifadə vasitələrinin dəyişdirilməsi, assosiativ təfəkkürün itiliyi, təşbeh və metaforalara polifonik çalarlıq vermək, konstruksiya əsasında şeiri qurmağa çalışmaq və bu yolla oxucu düşüncəsini oynatmaq, onu daim dinamik və oynaq saxlamağa nail olmaq” [7, s.109] kimi fərqli cəhətləri XX əsr daxilində 60-70-ci illər şeirinin özəlliyi saymışdır. R.Rza hələ 1958-ci ildə yazdığı “Ərk qalası” şeirində “alt dodaqdan üst dodağa qalxa bilməyən səsə qədər vuruşmaq” ifadəsi şeirin bədii təsvir və ifadə vasitələrinin dəyişdirmək cəhdindən xəbər verirdi:

*“Vuruşdular:*
*Alt dodaqdan*
*Üst dodağa qalxa bilməyən*
*Səsə qədər.*

*Vuruşdular:*
*Onlardan yeddi dəfə - yetmiş qat*
*Artıq olan,*
*Süngüləri narın daraq dişi kimi*
*Sıx olan düşmənlə...” [11, s.69].*

Bu poetik söz və ifadə tapıntıları R.Rzanın məşhur modern sərbəst şeirlərindən (“Rənglər” silsiləsi, “İnsan şəkli”, “Soruş”, “Sarı dana və

balaca qız" və b.) əvvəl və sonrakı zamanlarda da müşahidə etmək mümkündür: "ışığı bir çimdik/ayparaya baxdıqca/Yağış, yağış, deyib gözlədilər", "Parça-parça işıq cındırı ilə/doldu, boşaldı gecə" ("Ulduz yolu və dolu"), "Bilmirəm yaddaşın/yapışqan sədaqətindən/ necə can qurtarım" ("Yaddaş"), "Raketlər xaraba qusur", "Uzaq sözü/araba təkərinə dolaşmışdı/yaxın sözü/çəkməmin bağına", "ayaqyalın toyuqlar" ("Ömür keçdi, gün keçdi"), "ilk görüşüm/körpə ümidin dadı", "ömür damcı-damcı düşür/qayıtmazlığa" ("Ömür yolu"), "Üşüyürəm istidən" ("Ayrılıq"), "Məgər qəlbinin/dərd qrammasını oxumuşdunuz?" ("Rekviyem"), "Havadan asılmışdı/yanmış ət qoxusu" ("Torpaq yerində çiçək" – Bu şeir Xankəndində "məhkəmədən" sonra diri-diri yandırılan üç azərbaycanlıya həsr olunmuşdur.), Mən bilmirəm hansı gündür/dənizin ad günü" ("Dənizin ad günü"), "Rəngli yuxular görürəm/qırmızı, sarı, yaşıl", "Yorulmuşam/rəngsiz yuxulardan/adilikdən/əzbər bilikdən/yorulan kimi", "Bəzən ayılıram yuxudan/yuxu içində", "rəglərin qışqırıcı düzümü", "İsti sarını gördüm/rəngində xəzəllərin", "Soyuq yaşılı gördüm/gözündə gözəllərin", "Ağacların barmaqları qapqara", "Sarı alov rəngi axırıdı/dağlara, daxmalara" ("Rəngli yuxular")...

1970-ci illərdə poetik təfəkkür orijinallığı ilə, yeni obrazlı ifadə və məcazlar sitemi görünən şairlərdən biri də Çingiz Əlioğlu idi. 1965-ci ildə Yazıçıların IV Qurultayında "Tənqid bəzən Rəsul Rzanın ardınca gedən ayrı-ayrı gənclərin hərdənbir modernizm dumanında azdığını hiss edir..." fikrini xatırlayan Azər Turan "Ədəbiyyat söhbətləri"nin birində modernizm dumanında azan o gənclərdən birinin Çingiz Əlioğlu olduğunu deyir:

*"Uçan işıq daşlardan*
*Çiçəklərdən keçirdi.*
*Yarpaqlar, ağaclar,*
*Uçan işıqla birgə*
*Ruhumu da içirdi.*
*Ağacların şirəsində özümü axan gördüm...*
*Uçan işıqla keçdim*
*Dünyanın daşından, dəmirindən..." [19, s.10].*

Ç.Əlioğlu şeirlərindəki "Uçan işıq", "Ağacların şirəsində özümü axan gördüm" ("Uçan işıq"), "Biz mayayıq/qıcqırıb-qıcqırıb/dahilər yaradırıq", "İşığın yolları zaman yüklüdür", ("İstedadı yetirənlərin nəğməsi"), "çılpaq-çılpaq/atılacağıq/gülüş kösövlərinin içinə" ("Antihenrike"), "Vaxt meridianlarına/bölünmüşəm/Yer kürəsitək", "Şərab dolu/bu taxta çəllək/bir gün keflənə bilər", "Bir şüşəbədən/incəbel/butulkaayaq xanıma/göz vurar bu bazar uşağı" ("Çəllək"), "İtdik bu şəhərin küçələrində/bir ovuc düyünün içində/beş-üç çətənə kimi", "Dədələrimizin çoxu/davada itkin düşdü/özümüz şəhərdə" ("Xeyir istəyirsənsə"), "Perronlarımda /sərnişinlərin /böyürtkən, gilənar sevinci/Qulaqlarımda/yolların/narahat sevinci" ("Yarımdayanacağın nəğməsi") və s. kimi poetik kəşflər bunu təsdiqləyir. Eləcə də şairin "Bürkü" şeirndə "bekar bürkü", "avara bürkü", "tülkü bürkü", "tüklü bürkü" və s. tipli sözlər yeni bədii təyinlərdən xəbər verir. Adi bir detalı - yayın "bürkü"sünü poetik mətnin gedişatında bədii detala çevirən şair "iştahası özündən böyük kiçik müdirləri"in bürökratçılığının, yalan vədlərinin, "get-gəl"lərinin daha dəhşətli "bürkü" yaratdığını parçadan-parçaya rəsm edir. Lirik qəhrəman tüstülü küçələrin avtobus, maşın bürküsünə düşür, pulgir bazarların möhtəkirlik bürküsündə bişir, daha sonra bürkü detalı R.Rza, Ə.Kərim şeirində olduğu kimi planetarlaşır:

*"Bürküdür...*
*Atom silahı keçirib ələ*
*Afrikanın cənubunda*
*Bir dələduz ölkə...*

*Bürküdür...*
*Yaponiyada*
*Samuray ordusu*
*Dirçəlir yenə...*

*Bürküdür...*
*Qardaş qırğını*
*Gedir İranda..." [19, s.13-14].*

Şeir beləcə ictimai-siyasi narahatlığın, dəhşətlərin "bürkü" yaratması ilə davam edir. "Ürküdün/Bu tülkü bürkünü/tüklü bürkünü/Götürün kürəyimdən/alın çiynimdən/bürkü kürkünü" şəklində sonlanan "söz oyunu"nda bürkü ilə kürkün alliterasiyası baş tutur və bəşəri təhlükənin – siyasətləşən bürkünün hiyləgərliyi fonunda poetik fikrin açılmasına kömək edir.

N.Kəsəmənli, S.Rüstəmxanlı və Ç.Əlioğ-

lunu birləşdirən talenin sonralar onları üslub, yaradıcılıq maneraları baxımdan ayırdığını göstərən N.Cəfərov N.Kəsəmənlinin lirik-psixoloji, S.Rüstəmxanlının lirik-publisistik, Çingiz Əlioğlunun isə lirik-metafizik üsluba malik olmasını dəqiqləşdirir: "Hər üç üslub eyni dərəcədə emosional, hətta üsyankardır, ancaq üçüncü üslub həm də eksperimentaldır... Nüsrət Kəsəmənli ilə Sabir Rüstəmxanlının ilhamının obyekti, fakturası həmişə çox konkret olduğu halda, Çingiz Əlioğlunun şair ilhamı barədə bunu demək olmaz; o, çox zaman tamamilə mücərrəd, qeyri-müəyyən fakturadan – heç nədən şeir yarada bilər (və bilir)!.. Çingiz Əlioğlunun şeirlərində söz-leksikon o qədər güclü, enerjilidir ki, qrammatikanı bütünlüklə sıxışdırır, ikinci, hətta üçüncü plana keçirir. O, bunu edə bilər (və edir)!.." [20, s. 26].

Tədqiqatlarda Füzuli ədəbi məktəbi haqqında "onun nümayəndələri, demək olar ki, Azərbaycan poeziyasına heç bir şey verə bilməmişlər. Çünki Azərbyacan poeziyasında Füzuli ənənəsi təqlid və nəzirə ədəbiyyatı şəklində davam etmişdir" [21, s. 96] fikri ilə müqayisədə, demək olar ki, Rəsul Rza ədəbi məktəbinin taleyi Füzuli ədəbi məktəbindən tamamiə fərqli olmuş, "... Rəsul Rzanın şeirə gətirdiyi sərbəst düşüncə tərzi altımışıncı illərin cavan şairləri üçün örnək oldu. Lakin Rəsul Rzadan öyrənmək heç də onu təqlidə çevirmədi. Əli Kərim, Fikrət Qoca, Fikrət Sadıq, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Vaqif Səmədoğlu, Çingiz Əlioğlu, Vaqif Cəbrayılzadə, Camal Yusifzadə, Abbas Abdulla, Tofiq Abdin, Azər Abdulla poeziyada öz yollarını çox tez bəlirləyə bildilər" [22, s.52].

Ən qədim dövrlərdən dünya, eləcə də Azərbaycan-türk poeziyasında sərbəst şeirin nəzmin spesifik cəhəti olması, bir şeirin misralarında müxtəlif saylı hecalardan istifadə edildiyi, yunan və romalıların bundan daha çox itifadə etdiyi, bunun "Algey beyti" adlanması (misraların biri 8, bir 9, yaxud biri 10, biri 11 heca) qeyd olunsa da, nəzəriyyəçi alim A.Hacıyev Azərbaycan folklor və yazılı ədəbiyyatında az da olsa, "Algey" beyti ilə şeirlər yazılmasını ("Koroğlu" eposundan, F.Qocadan nümunələr vermişdir) istisna etməmiş, "Şeirdə nə xarakter bir cəhət – "Algey beyti", nə də qafiyə sərbəstliyi hələ sərbəst nəzm deyildir. Düzdür, "Orxon-Yenisey", "Gültəkin" abidələrində, "Dədə Qorqud"da sərbəst nəzmin əlamətlərinə təsadüf olunur. Ancaq bu ölçüyə maraq XIX əsrin sonu, XX əsrin əvvəllərində oyanmışdır" [23, s. 221] qənaətinə gəlmişdir. Alim sərbəst şeirdən ilk dəfə fransız, belçika, italyan və yaponların istifadə etdiyini, E.Verxarn, A.Blok, V.Brüssov, V.Mayakovski, N.Hikmət şeirlərilə buna marağın artdığını, XX əsrin iyirminci illərindən əvvəllərindən isə müxtəlif ədəbiyyatlarda onun milli spesifik ənənələrinin yarandığını qeyd etmişdir.

"Kitabi-Dədə Qorqud" eposunun dili, poetik strukfuru, şeir dili, mətnin semantika və semiotikası haqqında tədqiqatlara, o cümlədən prof.T. Hacıyevin araşdırmalarına söykənən nəzəriyyəçi alim N.Şəmsizadə qəti qərara gəlmişdir ki, "Azərbaycan ədəbiyyatında sərbəst vəzn öz mənşəyini dünyanın ən möhtəşəm eposu ilan "Kitabi-Dədə Qorqud" dastanından almışdır" [5, s. 299]. Zahirən gözəl sərbəst şeir təsiri bağışlayan elə lirik parçalar da olur ki, əslində onlar tədqiqatçı Vüqar Əhmədin fikrincə "heca vəzninin bölgü ahənginə, qafiyə quruluşunun isə çarpaz şəkildə qafiyələnməsinə uyğun gəlir". Alim R.Rövşənin "Qapı" silsiləsindən olan lirik parçalar bu qəbildən sayır:

*"O ilin paltarı uzun*
*Dörd il idi biçən yoxdu,*
*Uzanmışdı boyları*
*O ilin qızları uzun*
*Dörd il idi çalınmırdı toyları*
*Uzanmışdı, uzanmışdı boyları...*

Şeirdəki misraları nəzərdən keçirəndə aydın olur ki, misralar ölçü etibarı ilə bir-birinə bərabər deyil. Buna baxmayaraq, şair heca vəzninin tələblərinə ciddi şəkildə əməl etmişdir" [24, s. 105].

Müasir Azərbaycan ədəbiyyatında 1960-cı illərdə R.Rzanın daha çox sərbəst şeirdən istifadə etdiyini yazan A.Hacıyev onun bəzi məqalə və şeirlərində ("Ənənə", "Şeir vəzni və məhəbbət haqqında dastan", "Ənənəçi donuz", "Qafiyə", "Yeni söz", "Nəzirə") bu ölçünün imkanı haqqında obyektiv, eyni zamanda "... ölçü kimi bənd də fikri buxovlayır, poetik orqanizmə bir çox lüzumsuz, gərəksiz şeylər gətirir", "heca və əruz vəzni fikri çərçivəyə alır, əsərə

əlavə rəng, boya, söz və ifadə yükü gətirir" [23, s. 222] və s. kimi ziddiyyətli fikirlər söylədiyinə diqqəti çəkmişdir. Bir qism nəzəriyyəçi-ədəbiyyatşünas alimlər isə heca və əruzla vəzni ilə müqayisədə poetik fikirlərin daha azad, maneəsiz, sərhədsiz və sərbəst ifadəsində sərbəst şeirin imkanlarını yüksək qiymətləndirmişlər. N.Şəmsizadənin fikrincə, "Sərbəst şeir poetik sözü vəzn qəliblərinin məngənəsindən azad edir. Yaradıcılıq üçün ən vacib şərt – şairin azadlığı məhz bu vəzndə daha yaxşı ortaya çıxır"[5, s. 304], R.Yusifoğluya görə, "Сярбяст шеир сярт нязм гайдаларына бойун яймир, бу сцр шеирдя вязн, гафийя хятриня фикир тящриф олунмур. Яксиня, вязн дя, гафийя дя фикрин ифадясиня хидмят едир" [25, s. 253 ], Vüqar Əhməddə "Sərbəst vəzn məzmunun hərtərəfli açılması üçün geniş imkanlar yaradan, onu dərindən mənalandırmağa imkan verən bir vəzndir" [24, s. 104]. Hətta R.Rzanın bəzi fikirlərinə tənqidi yanaşan A.Hacıyev özü də "Sərbəst şeir ənənəni və ayrı-ayrı vəznləri inkar etmir. Əksinə, özünün varlığında başqa poetik ölçülərin ünsür və əlaqələrini cəmləşdirir" [23, s. 224] fikri ilə sərbəst şeirin daha universal bir şeir sistemi olduğunu etiraf etmiş olur.

Müasir poeziyada formanın şərtiliyindən bəhs edən tədqiqatçı R.Əliyev qafiyəsiz və ya sərbəst şeirə ədəbiyyatda modernist eksperimentçiliyin bir qolu kimi baxılmağını doğru saymış, "Biz ritm və qafiyəni şeirin ayrılmaz əlamətləri hesab edirik və poeziyanın qədim tarixi boyu belə olmuşdur" [26, s. 286 ] fikri ilə bir növ sərbəst şeiri modernizmin təsiri ilə forma şərtiliyi kimi ötəri saymış, ədəbi tərəqqi hesab etməmişdır. Alimin fikrincə, əsas: "İki şeyi dəqiq fərqləndirmək lazımdır: ədəbi tərəqqi və modernizm. Ədəbi tərəqqi həmişə davam edir, janrlar və formalar, üslublar və mövzular təzələnir və başqalaşır. Bu ədəbi tərəqqidir və janrların tarixində, formaların təkamülündə bunu həmişə aydın görmək olar" [26, s. 286-287 ]. XIX əsrin əvvəllərində salon ədəbiyyatçılığından doğmuş, burjua ailələri üçün sənətdən daha çox əyləncə olan modernizmin təkamül yolu ilə ədəbi tərəqqiyə yox, ədəbiyyatın klassik qaydalarını dağıdıb yeniləşdirməsinə tərəfdar çıxdığını yazan alim bunun (modernizmin) "əslində yenilik xatirinə yenilik" adlandırır, pis işlərin yoluxucu olduğu kimi modernizmin ənənəvi ədəbi cərəyanlara və üslublara təsiri də güclü olduğunu etiraf etməklə, "Lakin bu heç də modernizmin elitar, eksperimental və qeyri-peşəkar təbiətini aradan qaldırmır" qənaətinə gəlir.

Fikrət Qoca "Bu gün" adlı şeirində sərbəst, modern şeirlərinə görə тянгидляря, kəskin sözlərə qulaq asmayıb, inamına, özünə, sənətinə, şeirinə güvənərək "hамыдан чох дюйцлян", "щамыдан чох бяркийян" Rəsul Rzanı belə yada salır:

*"Дедиляр: Вязни позду.*
*О бир шеир дя йазды.*
*Дедиляр: Шеринин бязяйи азды.*
*О бир шеир дя йазды.*
*Дедиляр: Дайазды.*
*О бир шеир дя йазды.*
*Дедиляр биз анлайырыг,*
*Атта халг цчцн*
*Анлашылтазды.*
*О бир шеир дя йазды..." [14, s. 127 ].*

Ümumiyyətlə, ümumdünya ədəbiyyatı tarixində mövcud şeir vəznlərini ümumiləşdirsək, belə bir mənzərə alınar: antik, tonik (vurğulu), sillabik (heca), sillabik-tonik, əruz və sərbəst şeir. Azərbaycan ədəbiyyatşünaslığında ilk verlibr/özgür şeir poetikası tədqiqatçısı N.Atabəyli milli ədəbiyyatımızda heca və əruz vəznli şeirlərdən nəzəri şəkildə fərqlənən bütün digər sərbəst poeziya nümunələrinin "Azad şeir" termini və ümumi vəzn adı altında ifadə edilməsini təklif edir, öz tədqiqatlarında bunu elmi-nəzəri baxımdan əsaslandırır və belə nəticəyə gəlir ki, "sərbəst şeir" əvəzinə "azad şeir" terminini daha məqbul və ümumbəşəridir: "Azad şeir (-verlibr/ özgür şeir, sərbəst şeir, bəhri-təvil, mənsur şeir, aksentiv şeir, əski ozan şeiri, alliterasiyalı xalq deyimləri, sərbəst uşaq nəğmələri, seqmentiv şeir və s.) sənəti poeziya tarixində bir deformasiya (şəkil dəyişmə) deyil, daha çox ümumbəşəri mənəvi-idraki əhəmiyyətli estetik məzmun hadisəsidir" [27, s.29]. Tədqiqatçının fikrini biz də düzgün hesab edirik, çünki o biri vəznlərin öz daxilində, məsələn əruz və hecadaxili sərbəstliklər də ola bilər. "Azad şeir" termini tutumuna görə daha genişdir və bizim nəzərdə tutduğumuz sərbəst şeirlə yanaşı əruz və heca

vəzninin normalarına tabe olmayan, qəlibləşməyən, kanonlaşmayan digər şeirləri də öz poetik bucağı altına ala bilir.

Verlibri - azad şeiri müxtəlif ictimai-ideolji maraqlara cavab verə biləcək estetik sahə hesab edən N.Atabəyli onun müxtəlif müasir bədii cərayanlar üzrə bir-birinə tamamilə zidd təmayüllərinin olduğunu, R.Rzanın ədəbi taleyi timsalında onun həm sosialist realizminin əsas nümayəndəsi olmaqda, həm də "Rənglər"silsiləsinin müəllifi kimi sürrealizmdə qınanıldığını yazır, "Rənglər" silsiləsini müasir Azərbaycan ədəbiyyatının yüksəlişində irəliyə doğru tarixi addım saymaqla "Bu şeirlə verlibr estetikası Azərbaycan şeirinin müasirlik hüququnu bütün dünyada təsdiqləmişdir. Bu əsər Rəsul Rzanın Söz səltənətində "Nəsimi"poemasından sonra, ikinci ən cahanşümul tarixi zəfəridir. Qərb ədəbiyyatçılarının bu əsərə dərhal böyük maraq göstərməyi, mənim zənnimcə, heç də təsadüf üzündə deyildir... Zənnimizcə, bu uğurda şairin sənətkar qüdrəti qədər, Verlibr sənətinin Türk bədii təfəkkürünə tarixi doğmalığı da müəyyən rol oynamışdır" [27, s. 51]. Tədqiqatçı "türk bədii təfəkkürünün tarixi doğmalığı" ifadəsində, ilk yazılı sərbəst şeir nümunələri sayılan "Orxon-Yenisey" kitabələrinə işarə vurur. Azad şeir poetikası tədqiqatçısının gəldiyi qənaətə görə, azad şeirin gücü onun hər cür qəlb istəklərini ifadə edə bilməsində, əski ənənələri yaşatmaqla yüksək novatorluğa meyilli olmasında, "bəzən hədsiz ekstravaqant keyfiyyətləri" ağılı heyran etməsindədir. Qədim türk şeirinin bütün bu zəngin verlibr harmoniyası ünsürlərinin, poetik qayda-qanunlarının çağdaş professional Azərbaycan azad şeirinin başlıca vəzn xüsusiyyətləri sayır, bu "xüsusatlar"ın Vaqif Bayatlı Odər (Cəbrayılzadə), İsa İsmayılzadə, Fikrət Sadıq, Ramiz Rövşən, Vaqif Səmədoğlu və başqa şairlərin verlibrinin məziyyətləri kimi dəyərləndirir. Bütün bunları nəzərə alaraq, qətiyyətlə demək olar ki, Rəsul Rzanın sərbəst fəlsəfi-intellektual şeirləri həm 1960, eləcə də 1990-cı illərdə Azərbaycan poeziya məkanında azad şeir fəlsəfəsinin, poetexnologiyasının yaranmasına və inkişafına təkan verən və bu istiqami seçən ədəbi gəncliyi stumullaşdıran başlıca "poeziya amili" olmuşdur.

# ƏDƏBİYYAT:

1. Cəfərov M. Sənət yollarında. Bakı: Gənclik, 1975, 368 s.

2. Yusifli V. Poeziyanın yolları və illəri. Bakı: Mütərcim, 2009, 404 s.

3. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı: Elm, 2002, 740 s.

4. Salmanov Ş. Əsrin novator poeziyası//Rəsul Rza. Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı: Öndər, 2005, s.17

5. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Proqres, 2012, 434 s.

6. http://yarpaq.az/az/tehran-elisanoglu-azerbaycan-seirine-rezume/test

7. Akimova E. Çağdaş poeziya və ədəbi təmayüllər. Bakı: YYSQ - Milli Virtual Kitabxananın e-nəşri, 2018, 374 s.

8. Əsgərli Ə. XX əsr Azərbaycan şeirinin poetikası. Bakı: APOSTROFF, 2014, 316 s.

9. Rəsul Rza. Mənim fikrimcə (Məqalələr). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1967, 420 s.

10. Ədəbi proses - 81-82. Bakı: Elm, 1987, 304 s.

11. Rəsul Rza. Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı: Öndər, 2005, 304 s.

12. Cəbrayılzadə V. "Ömrümüzün o başına"//"Azərbaycan", 1981, № 5, s. 79

13. Abdullazadə A. Şairlər və yollar (Azərbaycan sovet poeziyasında yaradıcılıq üslubları). Bakı: Elm, 1984, 224 s.

14. Fikrət Qoca. Seçilmiş əsərləri, Bakı: Şərq-Qərb, 2004, 248 s.

15. Anar. Fikrət Qoca təsəllisi//Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004,

16. Abdulla A. Sonsuzluğa gedən karvan (Şeirlər və poemalar). Bakı: Yazıçı, 1988, 155 s.

17. Səmədoğlu V. Sən uzaq yaşıl ada. Bakı: Şərq-Qərb, 2004, 264 s.

18. Sadıq F. Kəsə sözlər. Miniatür şeirlər. YYSQ - Milli Virtual Kitabxananın e-nəşri, 2012, 51 s.

19. Əlioğlu Ç. Ömür ağacı (Şeirlər və poemalar). Bakı: Yazıçı, 1980, 141 s.

20. Cəfərov N. Çingiz Əlioğlu - çərçivənin çərçivəsizliyi, yaxud çərçivəsizliyin çərçivəsi. 525-ci qəzet, 2010, 11 dekabr

21. Mahmudova A. Füzuli ədəbi məktəbi (XVI-XVIII əsrlər). Bakı: Elm və təhsil, 2019, 200 s.

22. Yusifli V. Rəsul Rza və müasir Azərbaycan poeziyası. Bakı: Letterpress, 2010, 160 s.

23. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 1996, 376 s.

24. Əhməd V. Ədəbiyyatşünaslıq. Dərslik.Bakı: Müəllim, 2007, 167 s.

25. Yusifoğlu R. Ədəbiyyatşünaslığı əsasları. Bakı: ADPU, 2009, 288 s. s. 253

26. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 2008, 360 s

27. Namiq Atabəyli (Şirvani). Azad şeir və onun poetikası. "Step" ltd. kino şirkəti. Bakı-2017, 348 s.